# “Unibank” Kommersiya Bankı” Açıq Səhmdar Cəmiyyətinin rəsmi internet səhifəsinin Məxfilik siyasəti

Bu Siyasət, “Unibank” Kommersiya Bankı” Açıq Səhmdar Cəmiyyəti (bundan sonra “Bank”) tərəfindən, www.unibank.az rəsmi internet səhifəsinə (bundan sonra “internet səhifəsi”) Bankın xidmətlərindən yararlanmaq üçün daxil olan Müştərilərin və Bankın müştərisi olmayan İstifadəçilərin (bundan sonra “İstifadəçi(lər)”) şəxsi məlumatlarının toplanması, emal edilməsi, istifadəsi və qorunması məqsədi ilə Azərbaycan Respublikasının “Fərdi məlumatlar haqqında” Qanununun müddəalarını rəhbər tutaraq tərtib edilmişdir. Bankın Müştərisi və ya İstifadəçi internet səhifəsi üzərindən Bankın xidmətlərindən istifadə etməklə bu Siyasətin şərtlərini qəbul etmiş hesab olunur.
İnternet səhifəyə daxil olan hər bir Müştəri və ya İstifadəçi qəbul edir ki, bu Siyasətin şərtlərinə Bank tərəfindən birtərəfli qaydada dəyişiklik edilə bilər.

## 1. Bank tərəfindən toplanan məlumatlar

Müştəri və ya İstifadəçi tərəfindən internet səhifə istifadə olunan zaman Bank aşağıda qeyd edilmiş məlumatları toplaya bilər:
- Müştərilərin və ya İstifadəçilərin telefon kontaktları haqqında məlumat. Bu cür məlumat Müştəri və İstifadəçilər onlayn rejimdə bank xidmətlərindən istifadəsini asanlaşdırmaq məqsədi ilə toplanır.
- Müştərinin və ya İstifadəçinin geopozisiyası haqqında məlumat. Bu cür məlumat Müştəriyə və ya İstifadəçiyə Bankın ən yaxın filialları, bankomatları, Pos-terminalları və digər əlavə xidmətləri haqqında məlumatın Müştəriyə və İstifadəçiyə ötürülməsi məqsədi ilə toplanır.
- Müştərinin və ya İstifadəçinin əlaqə nöqtəsinin IP ünvanı haqqında məlumat. Bu cür məlumat Müştərinin və ya İstifadəçinin internet səhifəsindən istifadə etdiyi zaman informasiya təhlükəsizliyinin təmin olunması məqsədi ilə toplanır.
- Müştərinin və ya İstifadəçinin iş yeri haqqında məlumat. Bu cür məlumat Müştərinin və ya İstifadəçinin çalışdığı sahənin müəyyən edilməsi və fəaliyyət göstərdiyi sahənin növünə uyğun olaraq Müştəri və İstifadəçiyə xidmətlər təqdim edilməsi məqsədi ilə əldə edilir.

## 2. Müştərinin və ya İstifadəçinin məlumatlarının emal edilməsi şərtləri

Bu Siyasətin şərtlərini nəzərə alaraq Bank, yalnız bu Siyasətin 1-ci hissəsində qeyd edilmiş məqsədlərlə Müştəri və ya İstifadəçi məlumatlarını emal edir.
Bu Siyasətin məqsədləri üçün Bank, Müştərilərin və ya İstifadəçilərin məlumatlarının emal edilməsi məqsədi ilə üçüncü şəxsləri cəlb edə bilər. Bu halda, Bank, həmin üçüncü şəxslərlə məlumatların açıqlanmamasına dair ayrıca müqavilə bağlayır. Həmçinin Bank, rəsmi internet səhifəsinin, göstərilən bank xidmətlərinin təkmilləşdirilməsi məqsədi ilə partnyorlarına fərdiləşdirməmiş məlumatların da ötürülməsini həyata keçirir. Bu halda məlumatların ötürülməsi yalnız qanunvericiliyin tələbləri nəzərə alınaraq partnyorla bağlanmış müqavilə əsasında həyata keçirilir.
Müştərilər haqqında məlumatlar müqavilə münasibətləri qüvvədə olan müddətdə və müqavilə münasibətləri bitdikdən sonra da Bankın resurslarında saxlanılır.
Müştərilər və ya İstifadəçilər haqqında məlumatlar Bank tərəfindən yalnız qüvvədə olan qanunvericiliyin tələbləri nəzərə alınmaqla üçüncü şəxslərə ötürülə bilər.

## 3. Məlumatların məxfiliyinin qorunmasına yönəlmiş təhlükəsizlik tədbirləri.

Müştərilərin və ya İstifadəçilərin məlumatlarının məxfiliyini təmin etmək məqsədi ilə Bank bütün imkanlarından istifadə edir və məxfi məlumatların qanunsuz ələ keçirilməsi, onlara qanunsuz daxil olma və müdaxilə kimi hüquq pozuntularının qarşısını alır.
Bank tərəfindən mütəmadi olaraq Müştəri və ya İstifadəçi məxfi məlumatlarının toplanması, saxlanılması və emal edilməsi üsullarının təkmilləşdirilməsi həyata keçirilir. Fişinq və digər dələduzluq pozuntularının törədilməsi məqsədi ilə həyata keçirilən qanunsuz daxil olmaların qarşısının alınmasını Bank, fiziki tədbirlərin effektivliyini artıraraq həyata keçirir.
Məlumatların məxfiliyinin qorunmasının səmərəliliyi, həmçinin Müştəri və İstifadəçi tərəfindən Bankın müəyyən tövsiyələrinə riayət edilməsindən də asılıdır. Belə ki, Bank, rəsmi internet səhifəsinə daxil olan Müştəri və ya İstifadəçilərə tövsiyə edir ki, onlar bank hesabları, bank əmanəti, hesab əməliyyatları, bank sirrini təşkil edən digər məlumatları, habelə fərdi məlumatları üçüncü şəxslərlə paylaşmasınlar və məxfi saxlanılmasını təmin etsinlər.
Bankın irəli sürdüyü tövsiyələrə Müştəri və İstifadəçilər tərəfindən riayət edilməsi Banka təqdim olunan məlumatların maksimal müdafiəsinin təmin edilməsini, hər hansı əməliyyatın həyata keçirildiyi zaman mümkün olan neqativ risklərin azaldılmasını mümkün edir.

## 4. Məxfilik Siyasətinin dəyişdirilməsi. Tətbiq olunan qanunvericilik.

Bank, bu Siyasətə istənilən vaxt, birtərəfli qaydada dəyişiklik etmək hüququna malikdir. Dəyişikliklər rəsmi internet səhifəsində yerləşdirildiyi gündən etibarən qüvvəyə minmiş hesab olunur. Bank tövsiyə edir ki, Müştərilər mütəmadi olaraq Bankın rəsmi internet səhifəsinə daxil olaraq Siyasətə edilmiş dəyişikliklərlə tanış olsunlar. Bu Siyasətin mətni ilə tanış olmaq öhdəliyi Müştərinin və İstifadəçinin üzərinə qoyulur və tanış olmadıqları təqdirdə buna görə Bank məsuliyyət daşımır.